# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydasının təsdiq edilməsi haqqında

# Qərar № 167

***Bakı şəhəri, 25 oktyabr 2001-ci il***

«Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 fevral tarixli, 269 nömrəli Fərmanının 2-ci bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydası» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 2001-ci il, № 10, maddə 662) («VneshExpertService» LLC).***

***7 noyabr 2002-ci il tarixli, 173 nömrəli; 13 sentyabr 2006-cı il tarixli, 207 nömrəli qərarlara əsasən əlavələr və dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2001-ci il 25 oktyabr tarixli,*
*167 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydası

1. Bu Qayda «Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununa və «Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 fevral tarixli, 269 nömrəli Fərmanına əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisində fəaliyyətdə olan təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi və dövlət reyestrinin aparılması zamanı yaranan münasibətləri tənzimləyir.

2. Bu Qaydanın müddəalarına mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində təhlükə potensiallı obyektlərin[*] (bundan sonra — obyektlər) istismarı ilə məşğul olan hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (bundan sonra — şəxslər) tərəfindən əməl olunmalıdır.

3. Obyektlərin təhlükə potensiallı obyektlər kateqoriyasına aid edilməsi «Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq həyata keçirilir.

4. Obyektlərin, dövlət reyestrində qeydiyyatdan keçirilməsini və dövlət reyestrinin aparılmasını *Fövqəladə Hallar Nazirliyi* həyata keçirir.

5. Obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi fəaliyyəti, göstərilən qeydiyyatı həyata keçirən *Fövqəladə Hallar Nazirliyinin* saxlanılması üçün ayrılan vəsait daxilində maliyyələşdirilir.

6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada istismara qəbul edilən obyektlər onların istismarına başlanıldığı gündən ən geci 30 gün müddətində dövlət reyestrində qeydiyyatdan keçirilməlidir.

Obyektin dövlət reyestrində qeydiyyatdan keçirilməsi üçün obyekti istismar edən şəxs hər bir obyekti səciyyələndirən məlumatları *Fövqəladə Hallar Nazirliyinin* müəyyən etdiyi tələblərə uyğun sənədləşdirərək qeydiyyat orqanına təqdim etməlidir.

Qeydiyyat orqanı təqdim edilən sənədlərə onları xüsusi kitabda qeydə almaqla 10 gün müddətində baxır. Bu müddət ərzində təqdim edilmiş sənədlərdə təhrif olunmuş və ya qeyri-dürüst məlumatlar, çatışmazlıqlar aşkar edilmədikdə obyektin dövlət reyestrində qeydiyyatdan keçirilməsi haqqında qərar qəbul edilir.

Təqdim olunmuş sənədlərdə təhrif olunmuş və ya qeyri-dürüst məlumatlar, çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçiyə yazılı məlumat verilir, göstərilən qüsurlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra onlara 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

Dövlət reyestrində qeydiyyatdan keçirilmiş obyektlər haqqında məlumatlar qeydiyyat orqanının tələbi ilə 5 ildə bir dəfədən az olmamaq şərti ilə təzələnir.

7. İstismara qəbul edilən və ya fəaliyyətdə olan obyekt müəyyən olunmuş müddət ərzində dövlət reyestrində qeydiyyatdan keçirilməyibsə, qeydiyyat orqanı tərəfindən həmin obyekti istismar edən şəxsə obyektin dövlət reyestrində qeydiyyatdan keçirilməsinin son müddəti göstərilməklə bildiriş təqdim edilir. Həmin bildirişdə göstərilən müddət ərzində obyekti dövlət reyestrində qeydiyyatdan keçirməyən şəxs barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlərin görüləcəyi göstərilir.

8. Obyektin dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə həmin obyekti istismar edən şəxsə dövlət reyestrindən çıxarış verilir.

9. Dövlət reyestrində qeydiyyatdan keçmiş təhlükə potensiallı obyektlər və bu obyektləri istismar edən şəxslər haqqında məlumatlar vahid metodikadan istifadə edilməklə toplanılır və sistemləşdirilmiş şəkildə saxlanılır.

Obyektlər haqqında məlumatlar aşağıdakı bölmələr üzrə təsnifatlaşdırılır:

a) obyektlərin əlamətləri, obyektləri Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təhlükə potensiallı obyektlər kateqoriyasına aid edən əlamətlər;

~~b) həyata keçirilməsinə lisenziya tələb olunan fəaliyyət növləri;~~

c) obyektlərin idarə mənsubiyyəti;

ç) obyektlərin ərazi mənsubiyyəti.

10. Obyektlərin dövlət reyestrində qeydiyyatdan çıxarılması bu obyektləri qeydiyyatdan keçirmiş şəxsin qərarına əsasən obyektlər ləğv edildikdə həyata keçirilir.

Obyektlərin ləğv edilməsi, yaxud obyektlərdə edilmiş dəyişikliklərlə əlaqədar, həmin obyektlərdə təhlükəlilik əlamətlərinin qalmaması nəticəsində obyektlərin dövlət reyestrində qeydiyyatdan çıxarılması barədə məlumatlar *Fövqəladə Hallar Nazirliyi* tərəfindən müəyyən olunmuş tələblərə uyğun sənədləşdirilərək obyekti istismar edən şəxsin ərizəsi ilə birlikdə qeydiyyat orqanına təqdim edilməlidir.

11. *Fövqəladə Hallar Nazirliyi* tərəfindən aşağıdakılar təmin edilir:

a) qeydiyyatdan keçirilmiş obyektlər və bu obyektləri istismar edən şəxslər haqqında sistemləşdirilmiş məlumatın yığılması və saxlanılmsı;

b) dövlət orqanlarına öz səlahiyyətlərinin yerinə yetirilməsi üçün dövlət reyestrində qeydiyyatdan keçirilmiş obyektlər haqqında məlumatların lazım olan həcmlərdə təqdim olunması;

c) dövlət reyestrinin və ya onun aidiyyəti hissələrinin aparılması üçün normativ-metodiki bazanın yaradılması;

ç) dövlət reyestrinin aparılmasında avtomatlaşdırılmış sistemin tətbiq edilməsi.

12. *Fövqəladə Hallar Nazirliyi* əlavə olaraq öz səlahiyyətləri daxilində aşağıdakıları təmin edir:

a) obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsinin və reyestrin aparılmasının vahid metodikasının hazırlanıb Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə razılaşdırılaraq təsdiq edilməsini;

b) fəaliyyətdə olan obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsini;

c) dövlət reyestrinin aparılmasını;

ç) obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsinə və dövlət reyestrinin aparılmasına dair normativ-hüquqi aktların müəyyən olunmuş qaydada hazırlanmasını və təsdiq edilməsini;

d) obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi və reyestrin aparılması ilə bağlı elmi, metodiki və texniki araşdırmalar aparılmasını.

13. Dövlət reyestrində qeydiyyata alınmış obyektlər haqqında dövlət sirrinə aid edilməyən məlumatların təşkilatlara, o cümlədən ictimai birliklərə və vətəndaşlara təqdim olunması qaydası və məlumatın həcmi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

---

* *«Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununun 1 nömrəli əlavəsində göstərilən bir və ya artıq əlamətlərə (təhlükəlilik əlamətlərinə) malik olan müəssisə və ya onun sexi, sahəsi, meydançası, həmçinin digər obyektlər nəzərdə tutulur.*